**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# DƏRBƏND ŞƏHƏRİ AZƏRBAYCANIN MƏDƏNİYYƏT MƏRKƏZLƏRİNDƏN BİRİ KİMİ (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ)

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Niyaməddin Məzahir oğlu Hacıyev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2024**

Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi və Azərbaycan xalqına qarşı soyqırımları tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Tarix elmləri doktoru, professor
**İradə Səid qızı Bağırova**

Rəsmi opponentlər: Tarix elmləri doktoru, dosent
**İbrahim Feyzulla oğlu Kazımbəyli**

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Elbrus Saleh oğlu İsayev**

Tarix üzrə fəlsəfə doktoru
**Rəhim Məmmədağa oğlu Məcnunov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
**İsmayıl Muxtar oğlu Hacıyev**

Dissertasiya şurasının elmi katibi: Tarix elmləri doktoru, dosent
**Emin Arif oğlu Şıxəliyev**

Elmi seminarın sədri: Tarix elmləri doktoru, dosent
**Fəxrəddin Adil oğlu Cəfərov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Ölkəmizin müstəqillik qazanmasından sonra cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, elm və mədəniyyətin, o cümlədən tarix elminin inkişafında yeni bir mərhələ başlandı. İndiyə qədər davam etməkdə olan bu dövrü səciyyələndirən əsas cəhətlərindən biri də ondan ibarətdir ki, "qırmızı imperiyanın" mövcud olduğu 70 illik bir dövrdə üzərinə "sir pərdəsi" bürüdülmüş Vətən tariximizin qaranlıq səhifələrinin işıqlandırılması, tarixi həqiqətlərin aşkara çıxarılması və obyektiv elmi əsaslarla milli mənafelərimizə uyğun şəkildə yenidən yazılması istiqamətində geniş, planlı və kompleks işlər görülməkdədir. Başlanğıcı dövlətçilik tariximizdən daha qədimə gedib çıxan mədəniyyət, o cümlədən şəhər mədəniyyətimizin əsas mərkəzlərindən sayılan Dərbənd şəhərinin XIX-XX əsrin əvvəlləri dövrünün bu baxımdan araşdırılması bir çox aspektlərinə görə tarixşünaslığımızın prioritet sahələrindən biri olaraq qalmaqdadır.

Dərbənd şəhəri Azərbaycanın ən qədim tarixi ərazisinin üzvi tərkib hissəsidir. Tarixin bütün dövrləri ərzində onun ərazisinin hüdudları şimalda Dərbəndin şimalından başlayaraq güneydə Zəncanadək olan vahid məkan daxilində nəzərdən keçirilib və bu mənada Dərbənd olmadan Azərbaycanın etnik-siyasi birliyinin tamlığını təsəvvür etmək mümkün deyil.

Müstəqillik dövrü Azərbaycan tarixşünaslığında diqqət çəkən yeniliklərdən biri də odur ki, ayrı-ayrı şəhərlərin tarixinin kompleks şəkildə tədqiq olunmasına maraq artmış, bölgələrin və şəhərlərin tarixini araşdırmaqla Azərbaycan tarixini daha da zənginləşdirmək istiqamətində elmi araşdırmalar dərinləşdirilmişdir. Ümummilli lider Heydər Əliyevin təbirincə desək, *"Azərbaycanın qədim və zəngin tarixə malik bir çox şəhərləri vardır ki, ulu əcdadlarımızın bizə yadigar qoyduğu bu gözəl şəhərin hər bir guşəsi, hər bir daşı Azərbaycan xalqının yüksək dühasını, böyük qüdrətini, ulu mədəniyyətini əyani şəkildə*

*nümayiş etdirir”.*[1]

Çoxəsrlik zəngin tarixə malik olan, uzun dövr ərzində Azərbaycan xalqının iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamış Dərbənd şəhərinin tarixinin, elm və mədəniyyət mərkəzi kimi rolunun elmi əsaslarla tədqiq olunması çox mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir və böyük aktuallıq kəsb edir.

XIX-XX əsrin əvvəllərində Dərbəndin mədəni həyatı indiyədək ayrıca tarixi tədqiqat obyekti kimi kompleks şəkildə öyrənilməsə də, bu torpaqlarımızda mədəniyyətin müxtəlif sahələrinə aid ayrı-ayrı cəhətlərə həm sovet, həm Azərbaycan, həm də bu şəhərin hal-hazırda tərkibində olduğu çağdaş Dağıstan və Rusiya tarixşünaslığında toxunulmuşdur. Təbii ki, Dərbənd şəhərinin mədəniyyət tarixinin öyrənilməsində Azərbaycan tarixçilərinin kifayət qədər böyük əməyi vardır.

Tədqiq olunan mövzunu Azərbaycan tarixçilərindən M.H.Vəlili (Baharlı),[2] S.B.Aşurbəyli,[3] K.Şükürov,[4] A.Hacıyev,[5] S.Ə.İbişov,[6] H.Y. Verdiyeva,[7] F.Köçərli,[8] F.Qasımzadə,[9] F.Əsədov,[10] S.Rəhimova,[11]

---

[1]Bakı şəhərində İçərişəhər Tarix-Memarlıq Qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamından çıxarış. 17 fevral 2003-cü il.

[2]Vəlili M.H. Azərbaycan coğrafi, təbii, etnoqrafik və iqtisadi mülahizat / M.H.Vəlili. – Bakı: Azərnəşr, – 1993. – 204 s.

[3]Aşurbəyli S. Şirvanşahlar dövləti / S.Aşurbəyli. – Bakı: Avrasiya press, – 2006. – 416 s.

[4]Şükürov K. Azərbaycan əhalisi / K.Şükürov. – Bakı: Elm, – 2004. – 978 s.

[5]Hacıyev A. Dərbənd XIX-XX əsrin əvvəllərində / A.Hacıyev. – Bakı: Turxan NPB, – 2017. – 244 s.

[6]İbişov S.Ə. Quba xanlığı: əhali tarixi və azadlıq mücadiləsi / S.Ə.İbişov. – Bakı: “Elm”, – 2012. – 336 s.

[7]Verdiyeva H.Y. XIX əsrin birinci yarısında Şimali Azərbaycanın əhalisi / H.Y.Verdiyeva. – Bakı, – 1993. – 133 s.

[8]Köçərli Firudin bəy. Azərbaycan ədəbiyyatı / F.Köçərli. 2 cilddə, II cild. –Bakı: Elm, – 1981. – 486 s.

[9]Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi / F.Qasımzadə. – Bakı: Maarif, – 1974. – 486 s.

[10]Əsədov F. Dərbənd xanlığı [tarixi oçerk] / F.Əsədov. – Bakı: Bakı Universiteti, – 2004. – 94 s.

N.Əliyev,[12] H.Həsənov,[13] E.Qarayev,[14] M.X.Heydərov,[15] C.M.Mustafayev,[16] T.Mustafazadə,[17] əcnəbi tarixçilərindən G.Novruzova,[18] S.Alıyev,[19] Q.Ş.Kaymarazov,[20] A.N.Kajlayev,[21] A.A.Kudryavçev,[22]

---

[11]Rəhimova S. Dərbənd şəhəri XII-XV əsrlərdə: / tarix elmləri namizədi dissertasiyası / – Bakı, 2012. – 160 s.

[12]Əliyev N. Böyük Dərbənd Ensiklopediyası / N.Əliyev. – Bakı: Afpoliqraf, – 2018. – 784 s.

[13]Гасанов Г. Административно-территориальные изменения и эволюция демографического состояния в Дербендском регионе в XIX – нач. XX вв. // AMEA Tarix İnstitutunun əsərləri. Xüsusi buraxılış. "Dərbəndə şəhərinin tarixi: Azərbaycan və Dağıstan xalqlarının qardaşlıq və dostluq əlaqələrinin parlaq səhifələri" mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı, – 2012, 40-cı buraxılış, – s. 293-297.

[14]Qarayev E. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində / E.Qarayev. – Bakı: ADPU nəşriyyatı, – 2005. – 160 s.

[15]Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII веков. Ремесло и ремесл. Центры / М.Х.Гейдааров. – Баку: Элм, – 1982. – 281 с.

[16]Мустафаев Дж.М. Северные ханства Азербайджана и Россия (конец XVIII – нач. XIX в.) / Дж.М.Мустафаев. – Баку: Элм, – 1989. – 128 с.

[17]Мустафаев Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII века / Т.Мустафаев. – Баку: Елм, – 1993. – 240 с.

[18]Novruzova G. Dagıstan Derbent bölgesi terekeme türklerinin dini hayatı: / Felsefe ve Din Bilimleri Anabilim Dalı, Din Sosyolojisi Bilim Dalı, Yüksek Lisans Tezi / – Kayseri, 2005. – 95 s.

[19]Alıyev S. Derbent, İslam Ansiklopedisi, C.9, – İstanbul: TDV yayınları, – 1994. – s. 164-166.

[20]Каймаразов Г.Ш. Очерки истории культуры народов Дагестана [От времени присоединения к России да наших дней] / Г.Ш.Каймаразов. – М.: Наука, – 1971. – 476 с.; Каймаразов Г.Ш. Просвещение дореволюционном Дагестане / Г.Ш.Каймаразов. – Махачкала, – 1989. – 160 с.

[21]Кажлаев А.Н. Возникновение и экономическое развитие городов Дагестанской АССР / А.Н.Кажлаев. – Махачкала: Даг. кн. изд., – 1971, – 331 с.; Кажлаев А.Н. Возникновение и экономическое развитие Дербента / А.Н.Кажлаев. – Махачкала: Даг. кн. изд., – 1972. – 164 с.; Кажлаев А.Н. Дербент-город музей / А.Н.Кажлаев. – Махачкала: Даг. кн. изд., – 1965. – 72 с.

[22]Кудрявцев А.А. Древний Дербент / А.А.Кудрявцев. – М.: Наука, – 1982, – 172 с.; Кудрявцев А.А. Великий город на Каспии. Дербент в эпоху феодализма / А.А.Кудрявцев. – Махачкала: Даг. кн. изд., – 1982. – 184 с.; Кудрявцев А.А. Феодальный Дербент. Пути закономерностей развития города в VI – середине

V.V.Bartold,[23] Q.D.Daniyalov,[24] A.R.Şixsəidov,[25] X.X.Ramazanov,[26] X.M.Xaşayev,[27] D.Ə.Talıbov,[28] H.Hüseynov,[29] N.Ə.Məhəmmədov,[30] A.K.Kərimov,[31] F.H.Hacıyeva,[32] Z.Ü.Mahmudova,[33] E.M.Zülfüqarova,[34] L.A.Boqatırov,[35] A.S.Müslümova,[36] M.C.Aduxov,[37] A.M.İbrahi-

---

XIII в. / А.А.Кудрявцев. – М.: Наука, – 1995; Кудрявцев А.А. Дербенту - 5000 лет. / А.А.Кудрявцев. – М.: Советская Россия, – 1989. – 160 с.

[23]Бартольд В.В. Дербент // Собрание сочинений. Т.Ш.; Бартольд В.В. К истории Дербента // В.В.Бартольд. – ЗВО, Т.Х1Х, – СПб., – 1965. – с. 419-430.

[24]Даниялов Г.Д. Классовая борьба в Дагестане во второй половине XIX – нач. XX вв. / Г.Д.Даниядов. – Махачкала, – 1970. – 293 с.

[25]Шихсаидов А.Р. Дагестан в X-XIV вв. [Опыт социально-экономической характеристики] / А.Р.Шихсаидов – Махачкала: Даг. кн. изд., – 1975. – 175 с.

[26]Рамазанов Х.Х. Колониальная политика царизма в Дагестане в первой половине XIX в. / Х.Х.Рамазанов. – Махачкала, – 1956. – 40 с.

[27]Хашаев Х.М. Общественный строй Дагестана в XIX веке / Х.М.Хашаев. – М.: Изд. АН СССР, – 1971. – 261 с.

[28]Талыбов Д.А. Дербент: судьбы и люди. Исторические заметки / Д.А.Талыбов. – Махачкала: б/и, 2002. – 182 с.

[29]Гусейнов Г. Дербент. Энциклопедия / Г.Гусейнов. – Москва, – 2009. – 551 с.; Гусейнов Г. Город тысячи легенд / Г.Гусейнов. – Махачкала, – 1982. – 136 с.

[30]Магомедов Н.А. Дербент и Дербентское владение в XVIII – первой половине XIX в. / Н.А.Магомедов. Политическое положение и экономическое развитие. – Махачкала, – 1998.; Магомедов Н.А. Дербентское ханство в русско-иранских и русско-турецких взаимоотношениях во второй половине XVIII начале XIX вв. / Н.А.Магомедов. – Махачкала: Изд. ДГПУ, – 2000, – 128 с.

[31]Керимов А.К. Мой город Дербент / А.К.Керимов. – М.: Прозерпина, – 1994, – 256 с.

[32]Гаджиева С.Ш. Дагестанские терекеменцы: XIX – начало XX в.: Историко-этнографическое исследование / С.Ш.Гаджиева. – Баку: Наука, – 1990. – 216 с.

[33]Махмудова З.У. Дербент в XIX – начале XX вв.: Этническая мозаичность города на «вечном перекрестке» / З.У.Махмудова. – М., – 2006. – 157 с.

[34]Зульпукарова Э.М. Формирования и деятельность Дагестанской Интеллигенция конец XIX – середина XX века / Э.М.Зульпукарова. – Махачкала: Юпитер, – 2003. – 360 с.

[35]Богатыров Л. А.Культурное развитие Дагестана в 20-е годы XX в. / Л.Богатыров. – Москва, – 2009. – 31 с.

[36]Муслимова А.С. Народное образование в Дагестане во второй половине XIX – начале XX веков / А.С.Муслимова. – Махачкала, – 2002. – 179 с.

[37]Адухов М.Д. Становление и развитие светского образования в Дагестане:

mov,[38] T.C.Hacıağayev[39] və digərləri araşdırmışlar.

Dissertasiya mövzusu tədqiq olunarkən, 1918-ci ilə qədərki dövrdə Dərbənd və Dağıstan miqyasında sosial-mədəni həyatın ayrı-ayrı problemlərini araşdıran tarixçilərin, səyyahların, ictimai xadimlərin əsərləri və məlumatlarından,[40] həmçinin Azərbaycan Respublikası Milli Arxiv İdarəsində saxlanılan rəsmi sənədlərdən,[41] Dağıstan Respublikasının Dövlət Arxivində saxlanılan materiallardan,[42] Gürcüstan

---

Вторая половина XIX в. – XX в. / М.Д.Адухов. – Махачкала, – 2004. – 500 с.

[38]Ибрагимов А.М. Дербент – музей под открытым небом / А.М.Ибрагимов. – Махачкала: Лотос, – 2015. – 224 с.

[39]Гаджиагаев Т.С. Взаимоотношения народов Дагестана и Азербайджана во второй половине XIX – начале XX в. / Т.С.Гаджиагаев. – Махачкале, – 2009. – 160 с.

[40]Bakıxanov A.A. Gülüstani-İrəm / A.A.Bakıxanov. – Bakı: Xatın-Plyus. – 2010. – 302 s.; Dərbəndnamələr / – Bakı: Nurlan, – 2010. – 92 s.; Акты, собранные Кавказской Археографической комиссией. Т. I-XII. Тифлис, 1866-1904.; Кавказский календарь, на 1897 годъ. отъ канцелярий кавказскаго наместника. – Тифлис, – 1896.; Кавказский календарь, на 1901 годъ. отъ канцелярий кавказскаго наместника. – Тифлис, – 1900.; Алкадари Г.Э. Асари-Дагестан / Г.Э.Алкадари – Махачкала: Юпитер, – 1994. – 158 с.; Козубский Е.И. История города Дербента / Е.И.Козубский. – Темир-Хан-Шура: Изд. Русская типография, – 1906. – 648 с.; Козубский Е.И. К истории народного образования в Дагестанской области в первое пятидесятилетие // Дагестанский сборник. – Темир-Хан-Шура, – 1902. Вып. I. – 445 с.; Обзор о состоянии Дагестанской области за 1904 год. – Темир-Хан-Шура, – 1905.

[41]В Шемахино-Дербентскую дирекцию училище. Рапорт. 13 января 1853 года. На 250 листах. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 845, siyahı №1, iş № 73, vərəq – 2; Концелярия заведующего Кавказского Учебного Округа. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 311, siyahı №1, iş № 596, vərəq – 5-8.; Статистический ведомости о состояний Дербендского городского училише за 1913 годь. На 116 листах. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 309, siyahı №1, iş № 975, vərəq – 31.

[42]Обращение председателю педагогического Совета Дербентской женской Гимназии Кавказкого Учебного Округа. На 723 листах Центральный Государственный Архив Республики Дагестан, Фонд №85, опись №1, дело №15, л. №399.; Обращение начальника Санкт-Петербургского Учебного Округа Н. Кульчинского начальнику Кавказского Учебного Округа. На 723 листах Центральный Государственный Архив Республики Дагестан, Фонд №85, опись

Respublikası Milli Arxiv sənədlərindən[43] və digər rəsmi sənədlərdən və materiallardan istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın başlıca obyekti uzaq əsrlər boyunca Azərbaycanın ən qədim şəhərlərindən biri olan, vətənimizin quzey girişi, hüdudlarımızın yenilməz qalası olmuş Dərbənd şəhərinin XIX-XX əsrin əvvəlləri mədəniyyət tarixinin bir çox mühüm məsələləridir.

XIX əsrin əvvəllərində Dərbənd şəhəri çar Rusiyası tərəfindən işğal olunsa da, romanovçu müstəmləkə əsarəti dövründə də Dərbənd və onu əhatələyən bölgələrimiz Azərbaycanın üzvi tərkib hissəsi olaraq qalmış, burada da Quzey Azərbaycanın digər bölgələrində baş vermiş sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni proseslər getmişdir. XIX-XX əsrin əvvəllərində Dərbənd şəhəri həm də ümumazərbaycan mədəni mühitinin üzvi tərkib hissəsi olaraq qalmaqda idi. Dissertasiya işinin konkret predmeti də məhz Dərbəndin Azərbaycan mədəniyyətinin həmin dövrdəki inkişaf mərkəzlərindən biri kimi tarixinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işi yazılarkən qarşıya qoyulan əsas məqsəd XIX əsrin sonu – XX əsrin əvvəllərində Dərbənd şəhərinin Azərbaycanın mədəniyyət mərkəzlərindən biri kimi mənbələr və mövcud ədəbiyyatın tənqidi təhlili əsasında araşdırılmasıdır. Bütün bunların əsasında Dərbənd şəhərinin Azərbaycanın tarixi taleyində oynadığı rol və tutduğu mövqenin müəyyənləşdirilməsi də tədqiqatın əsas məqsədlərindən birini təşkil edir. Bu əsas elmi məqsədə çatmaq üçün qarşıya konkret olaraq aşağıdakı vəzifələr qoyulmuşdur:

- Qədim dövrdən XX əsrin əvvəllərinə qədər Dərbənd şəhərinin

---

№1, дело №15, л. №637.; Обращение председателя Бакинской женской Гимназии председателю Педагогического Совета Дербентской женской Гимназии. 6.09.1914 г. Центральный Государственный Архив Республики Дагестан. Фонд №85, опись №1, дело №15. л. 222-223.; Отчеты военного губернатора о состоянии Дербентской губернии за 1850 г. Российский Государственный Исторический Архив. Фонд №1268, опись №5, дело №372. л. №11-30.

[43]Проект сметы трехлетие 1915-1917 год по Дагестанский области. Национальный Архив Грузии. Фонд №13, Опись №8, дело №1119. На 92 листях. л. 12-13.

tarixini yığcam şəkildə təhlil etmək;

- XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərinin sosial-mədəni həyatını ümumi və müqayisəli şəkildə araşdırmaq;
- Şəhərin mədəni həyatının ayrı-ayrı sahələrinin durumu və təkamülünün obyektiv şəkildə araşdırılaraq dəyərləndirmək;
- XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərində elm və təhsil sistemini arxiv və rəsmi sənədlər əsasında tədqiq etmək;
- XIX əsrdə Azərbaycanda elm və təhsilin inkişafında Dərbənd şəhərinin yerini və rolunu müəyyənləşdirmək;
- Çar Rusiyası işğalı dövründə şəhərdə ədəbi mühitin durumunu təhlil etmək və incəsənətin inkişaf yollarını müəyyənləşdirmək;
- XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərinin şifahi və yazılı ədəbiyyatı nümunələrini tədqiq etmək;
- Həmin dövrdə incəsənət sahələri və onların inkişaf xüsusiyyətlərini araşdırmaq, onların durumunu qıymətləndirmək;
- XIX-XX əsrin əvvəllərində şəhərdə mətbuatın inkişafı, bu inkişafın gedişi, xüsusiyyətləri və başlıca nəticələrini araşdırmaq;
- Dərbənddə təhsil sistemini, onun başlıca formalarını, dünyəvi və dini məktəblərin durumunu işıqlandırmaq;
- XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərində din və onun sosial-mədəni həyatda rolunu araşdırmaq;
- Dərbəndin folklorunun Azərbaycan şifahi xalq ədəbiyyatının folklorundakı yerinə ətraflı nəzər salmaq;
- Dərbəndin musiqi və teatr həyatını nəzərdən keçirməklə, onun inkişaf özəlliklərini dəyərləndirmək.

**Tədqiqat metodları**. Mövcud dissertasiya əsasən tarixi obyektivliyə sədaqət və tarixilik prinsipləri, çoxsaylı qaynaqların sistemli və kompleks şəkildə, tənqidi nəzərdən keçirilməsi əsasında müqayisəli təhlil yolu ilə araşdırılmasına əsaslanan obyektiv tarixi tədqiqat metodları əsasında yazılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Mövcud dissertasiya tədqiqatında müdafiəyə aşağıdakı əsas elmi müddəalar çıxarılmışdır:

- Təbriz, Naxçıvan, Şamaxı, Bakı, Şirvan və başqa şəhərlərimiz kimi, Dərbənd şəhəri də Azərbaycanın əzəli torpaqlarında meydana

çıxmış, Vətənimiz və xalqımızın sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni həyatında mühüm rol oynamış qədim yurdlarımızdan biridir;

- Tarixi 5000 ildən də əvvələ gedib çıxan Dərbənd şəhəri hələ orta əsrlərdən bəri qədim şərqin ən böyük mədəniyyət mərkəzlərindən biri olmuşdur;

- XVIII əsrdə romanovlar Rusiyasının bu şəhəri işğal etməsinə baxmayaraq, tədqiqat üçün seçilmiş dövrdə də Dərbənd Azərbaycanın elm, təhsil və mədəniyyət mərkəzlərindən biri olaraq qalmışdır;

- Bu dövrdə Dərbənddə avropasayağı təhsil, elm və mədəniyyətin tədricən yayılaraq bütövlükdə mədəni həyatda aparıcı mövqelərə yiyələndiyi müşahidə olunmuşdur;

- Bununla bərabər Dərbənddə bütövlükdə Azərbaycan mədəniyyətinə xas olan mənəvi mədəniyyət sahələrinin saxlanılması, inkişaf etdirilməsi göz qabağında olmuş, şəhər Azərbaycan ozan sənəti, musiqisi, folkloru və incəsənətinin mərkəzlərindən biri olaraq qalmışdır;

- Tədqiqat dövründə də Azərbaycan mədəniyyətinin mərkəzlərindən biri olaraq qalan Dərbənd şəhəri Azərbaycan elm və təhsilinin, incəsənətinin və s. inkişafına sanballı töhfələr vermiş, Azərbaycan mədəniyyət xadimlərinin sırasını yeni istiqamətlərlə zənginləşdirmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya XIX – XX əsrin əvvəllərində Dərbənd şəhərinin Azərbaycan mədəniyyətinin mərkəzlərindən biri kimi tarixini müxtəlif mənbə və məlumatlar əsasında kompleks şəkildə öyrənən ilk tədqiqat işidir. Çoxsaylı və müxtəlif qaynaqlar, elmi əsərlər əsasında qədim dövrdən – XX əsrin əvvəllərinə qədər Dərbənd şəhərinin tarixi təhlil edilmiş və bu şəhərin Azərbaycan tarixində mühüm rola malik olduğu bir daha təsdiq olunmuşdur. XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərinin sosial-mədəni həyatı ümumi və müqayisəli şəkildə araşdırılmış və bu qənaətə gəlinmişdir ki, çar Rusiyasının bu bölgədə həyata keçirdiyi müstəmləkəçilik siyasətinə baxmayaraq, şəhər inkişaf dinamikasını saxlamış və öz sosial-iqtisadi əhəmiyyətini qorumuşdur.

XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərində elm və təhsil sistemi arxiv və rəsmi sənədlər əsasında tədqiq edilərək bu qənaətə gəlin-

mişdir ki, rus müstəmləkəçilik rejiminin həyata keçirdiyi tədbirlərə baxmayaraq, həmin dövrdə şəhərdə elm və təhsil sahələrinin artan inkişafı davam etmişdir.

Çar Rusiyası işğalı dövründə Dərbənd şəhərində ədəbi mühit və incəsənətin inkişaf yolları müəyyənləşdirilmiş və bu dövrdə də Dərbənd şəhərinin öz milli ədəbi və incəsənət mühitini qoruduğu üzə çıxarılmışdır. Həmin dövrdə Dərbənd şəhərinin şifahi və yazılı ədəbiyyatı nümunələri tədqiq edilmiş və bu milli dəyərlərin şəhərin yerli azərbaycanlı əhalisinin mənəvi həyatında böyük rola malik olduğu öz təsdiqini tapmışdır. Bu dövrdə mədəniyyət mərkəzlərindən biri kimi Dərbənd şəhərində mətbuatın inkişafı, aşıq məktəbi və folkloru, teatr və musiqi həyatı elmi əsaslarla izah edilmişdir.

XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərində din və onun sosial-mədəni həyatda rolu araşdırılmış, bu mənəvi dəyərlərin çar Rusiyası dövründə də qorunub saxlanılaraq cəmiyyət həyatında mühüm rol oynadığı üzə çıxarılmışdır. Müxtəlif qaynaqlar və faktlar əsasında aparılmış tədqiqatlarla sübut olunmuşdur ki, qeyd olunan dövrdə Dərbəndin mədəni həyatında əldə edilmiş nailiyyətlər heç də Rusiya müstəmləkə rejiminin sosial-mədəni siyasətinin nəticəsində yox, xalqın mədəni irsi və ənənəyə əsaslanan tarixi mədəni inkişafının hesabına mümkün olmuşdur. Həmçinin Dərbəndin ədəbi-mədəni mühiti, mədəniyyət tarixi Azərbaycan mədəniyyətinin üzvi tərkib hissəsi, Dərbənd şəhəri isə vahid Azərbaycan mədəniyyətinin inkişaf mərkəzlərindən biri olaraq qalmaqda idi.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat mövzusu araşdırılarkən, əldə olunan elmi yeniliklər nəzəri əhəmiyyətə malikdir. Tədqiqat işi materiallarından, burada gətirilmiş qaynaqların məlumatlarından Azərbaycan tarixinə dair ümumiləşdirilmiş əsərlər yazılmasında, mühazirə kurslarının hazırlanmasında, bütövlükdə Azərbaycanın mədəniyyəti, o cümlədən Azərbaycan şəhər mədəniyyəti tarixinin öyrənilməsində, ali məktəblərdə Azərbaycan tarixi, mədəniyyət tarixi fənlərinin tədrisində, bu problemlərlə bağlı xüsusi kurs və xüsusi seminarların keçirilməsində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddə-

aları müəllifin məqalə və tezislərində müxtəlif elmi məcmuələrdə, nüfuzlu elmi jurnallarda çap olunmuş, beynəlxalq və respublika elmi konfranslarının materiallarında elmi dövriyyəyə tətbiq edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işinin mövzusu AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurası tərəfindən təsdiq olunmuş və dissertasiya həmin İnstitutun "Azərbaycanın yeni tarixi və Azərbaycan xalqına qarşı soyqırımları tarixi" şöbəsində yerinə yetirilmiş və şöbənin 08 may 2021-ci il tarixli (protokol №5) iclaslarında müzakirə olunaraq müdafiəyə təqdim edilmişdir.

**Dissertasiya işinin quruluşu və həcmi.** Dissertasiya giriş (19 səhifə – 37352 işarə), I fəsil (2 paraqraf – 35 səhifə – 67228 işarə), II fəsil (2 paraqraf – 36 səhifə – 35332 işarə), III fəsil (3 paraqraf – 34 səhifə – 64527 işarə), nəticə (12 səhifə – 21631 işarə), istifadə olunmuş ədəbiyyat siyahısından (18 səhifə – 24231 işarə) ibarət olmaqla ümumilikdə 157 səhifədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılmış, tədqiqatın obyekti və predmeti şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsasları müəyyənləşdirilmiş, müdafiəyə çıxarılan əsas müddəalar təsbit edilmiş, işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **"Dərbənd şəhərinin sosial-mədəni həyatı"** adlanan birinci fəslinin ilk paraqrafı **"Dərbənd şəhərinin tarixindən"** adlanır. Bu paraqrafda tarixi Azərbaycan şəhəri olan Dərbəndin qədim dövrdən başlayaraq XX əsrin əvvəllərinə qədərki dövrü əhatə edən qısa tarixi, siyasi coğrafiyası, şəhərin adının etimolojgiyası, etnik və demoqrafik vəziyyəti, idarəçilik sistemi, sosial-iqtisadi həyatı və s. məsələlər şərh olunmuşdur.

Dərbəndin adı və onun yerləşdiyi yer ərəb coğrafiyaçılarının əsərlərində "Bab-əl-Əbvab" (qapı, darvaza), "Babül-Xədid" (dəmir qapı), "Əl-Bab" (qapı), "Səd-Əlvan" (gümüş qapı) kimi verilir.[44]

Dərbənd strateji məntəqə kimi əvvəllər Albaniya hökmdarlarının və Sasani şahlarının hərbi-siyasi dayağı rolunu oynayırdı. Burada daimi olaraq böyük bir qarnizon saxlanılırdı, lakin daha sonra ticarət iqtisadi əlaqələrin genişlənməsi, yerli iqtisadiyyatın inkişafı, hərbi-siyasi səbəblər nəticəsində Dərbənd, əsasən hərbi-strateji əhəmiyyətli məntəqə kimi təşəkkül tapmış, mühüm ticarət, sənətkarlıq, mədəniyyət mərkəzinə, əlverişli dəniz limanına çevrilmişdi.[45]

VII-VIII əsrlərdə Dərbənd aramsız davam edən ərəb-xəzər müharibələrinin ciddi təsirinə məruz qaldı. VIII əsrin 30-cu illərində bu mübarizədə qalib gələn Ərəb Xilafəti Dərbənd də daxil olmaqla Azərbaycanın işğalını başa çatdırdı.[46]

---

[44]Məmmədov T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə / T.M.Məmmədov. – Bakı: "Təhsil", – 2006. – s. 140.

[45]Azərbaycan tarixi: [7 clddə] / Məsul redaktor Nailə Vəlixanlı. – Bakı: Elm, – c. 2. – 1998. – s. 41.

[46]Vəlixanlı N. Azərbaycan və ərəb xilafəti / N.Vəlixanlı. – Bakı: ADN, – 1993. – s. 33-36.

Azərbaycanda və digər işğal olunmuş ölkələrdə gedən müstəqillik uğrunda mübarizə zəminində Xilafətin zəifləməsi nəticəsində Azərbaycanın şimal-şərqində yaranmış Şirvanşah Məzyədilər dövləti 988-ci ildə Dərbənd şəhərini də öz nüfuz dairəsinə salmışdı. Azərbaycan torpaqlarını vahid mərkəzdən idarə etməyə çalışan Saci hökmdarı Yusif ibn Əbu Sac da Dərbəndi tutaraq buradakı bürcləri və müdafiə istehkamlarını möhkəmləndirmişdi. Bununla belə, Dərbəndin Haşimilər sülaləsi tərəfindən idarə olunması bundan sonra da müəyyən müddət davam etmişdi.[47]

XI əsrdə Səlcuqlar Dərbəndi ələ keçirsələr də, bu bir növ formal asılılıq olmuş, şəhər hakimliyi əslində müstəqil siyasətini davam etdirmişdir. 1220-1239-cu illərdə baş vermiş monqolların Azərbaycana yürüşləri nəticəsində, 1239-cu ildə monqollar Dərbənd şəhərini ələ keçirərək bütün Azərbaycan ərazilərinin işğalını başa çatdırırlar. Şəhər əvvəlcə Ali Monqol Xaqanlığının canişinləri tərəfindən idarə edilir, 1256-cı ildən isə Hülakular [Elxanilər] dövlətinin [1256-1357] və daha sonra Cəlairilər dövlətinin [1359-1410] tərkibində qalmışdır.[48]

Dərbəndin XIV əsrin sonu – XV əsrin əvvəllərindəki tarixi daha gərgin hadisələrlə zəngindir. Şəhər bu dövrdə Teymur və Toxtamış kimi fatehlərin hücumlarına məruz qalmışdır. XV əsrdə də Dərbənd özünün sərhəd şəhəri mövqeyini qoruyub saxladı. Həmin dövrdə Səfəvi şeyxlərinin Şirvana, o cümlədən Dərbəndə yürüşləri baş verdi və nəhayət, 1538-ci ildə Şirvanşahlar dövlətinin süqutu ilə Dərbənd tamamilə Azərbaycan Səfəvi dövlətinin tərkibinə daxil edildi.

1736-cı ildə Azərbaycan Səfəvi dövlətinin, 1747-ci ildə isə Azərbaycan Əfşarlar imperiyasının süqutu, Azərbaycan ərazilərində bir çox xanlıqların, o cümlədən Dərbənd xanlığının yaranmasına gətirib çıxardı. Dərbənd xanlığın banisi Məhəmmədhəsən xanın atası İbrahimqulu

---

[47]Aşurbəyli S. Şirvanşahlar dövləti / S.Aşurbəyli. – Bakı: Avrasiya press, – 2006. – s. 231.

[48]Piriyev V. Son orta əsrlər Dərbəndinin tarixi-siyasi coğrafiyasından // Dərbənd şəhərinin tarixi: Azərbaycan və Dağıstan xalqlarının qardaşlıq və dostluq əlaqələrinin parlaq səhifələri” mövzusunda keçirilən beynəlxalq elmi konfransın materialları. Elmi əsərlər. 40-cı cild. AMEA Tarix İnstitutu. Bakı, – 2012, – s. 184.

bəy 1722-ci ilə kimi Dərbənddəki şah qarnizonunun rəisi olmuş və ruslar Dərbəndi ələ keçirərkən çar I Pyotr tərəfindən Dərbəndin hakimi təyin olunmuşdu. 1735-ci ildə Gəncə müqaviləsinin imzalanmasından sonra Rusiya qoşunları Azərbaycanı tərk edir və Dərbənd şəhəri Nadir şah Əfşarın imperiyasının tərkibinə qaytarılır.[49]

1759-cu ildə Qubalı Fətəli xan Dərbəndi özünə tabe edərək bu şəhəri Quba xanlığının paytaxtına çevirdi.[50] 1796-cı ilin may ayında V.Zubovun başçılığı ilə rus qoşunları Dərbəndi tutmaq istəyərkən, Quba xanı Şeyxəli xanın başçılığı altında qızğın müqavimətə rast gəldi. Lakin 1796-cı il mayın 10-da şəhər ruslar tərəfindən işğal olundu. 1797-ci ilin martında rus qoşunları Azərbaycan ərazisini tərk edən kimi Şeyxəli xan yenidən bütün Quba xanlığında, o cümlədən Dərbənddə hakimiyyəti ələ keçirdi. Sonralar Həsən xan Dərbəndin idarəçiliyini ələ keçirmiş və 1803-cü ildə qədər Dərbənd xanı olmuşdu. Həmin müddətdən sonra Dərbənd yenidən Quba xanlığının tərkibinə qatılmışdır.[51]

1806-cı il iyunun 21-də Dərbənd rus qoşunları tərəfindən işğal edilmiş və şəhər Rusiya imperiyasının tərkibinə daxil olunmuşdur. Rus işğalından Dərbənd quberniyasının yaranmasına qədər Dərbənd şəhərində "hərbi-xalq" idarə üsulu təşkil edilmişdir. 1806-cı ilin avqustunda komendant vəzifəsi təsis edilmişdir. 1812-ci ilin fevralında yaradılmış Dərbənd əyaləti 1840-cı ilin aprel qanunu qüvvəyə minənə qədər fəaliyyət göstərmişdi.[52]

Rusiya çarı I Nikolay tərəfindən təsdiq olunan 10 aprel 1840-cı il "Əsasnaməsi"nə görə, Dərbənd Xəzər vilayətinin tərkibində qəza statusu aldı. Mərkəzi Dərbənd şəhəri olan Dərbənd qəzası Dərbənd, Tabasaran və Qaraqaytaq mahallarını əhatə edirdi. 1846-cı il "Əsasnaməsi"nə görə, Dərbənd quberniyası yaradılmış, Dərbənd və Quba qəza-

---

[49]Əliyev N. Böyük Dərbənd Ensiklopediyası / N.Əliyev. – Bakı: Afpoliqraf, – 2018. – s. 175.

[50]Mustafazadə. T. Quba xanlığı / T.Mustafazadə. – Bakı: Elm, – 2005. – s. 16-18.

[51]Əliyev N. Böyük Dərbənd Ensiklopediyası. – s. 175.

[52]Hacıyev A. Dərbənd XIX-XX əsrin əvvəllərində / A.Hacıyev. – Bakı: Turxan NPB, – 2017. – s. 43-45.

ları, Samur və Dargin dairələri, Kürə və Qazıqumux xanlıqları buraya daxil edilmişdi.[53]

1847-1850-ci illərdə Dərbənd qubernatoru vəzifəsini A.İ.Qaqarin, 1850-1856-cı illərdə Y.F.Minkeviç, 1857-1858-ci illərdə Z.S.Manyukin, 1858-1860-cı illərdə isə D.K.Aseev tutmuşdular.[54]

1860-cı il 10 iyun çar fərmanı ilə təsdiq edilən "Əsasnamə"yə görə, Dərbənd quberniyası ləğv edilmiş və onun yerində Dağıstan vilayəti yaradılmışdı. Dərbənd bölgəsi Rusiyanın Dağıstan vilayətinə daxil edilmişdi.

Hələ XIX əsrin əvvəllərində, yəni 1810-cu ildə Dərbəndin şəhər əhalisinin [4169 nəfər] 95 faizini – 3947 nəfərini şiə məzhəbinə məxsus olan müsəlmanlar, daha dəqiq desək, əsasən – Azərbaycan türkləri təşkil edirdi. 1824-cü ildə şəhərdə müsəlmanların sayı 10377 nəfərə çatmışdı [əhalinin 93,8%]. 1851-ci ildə müsəlmanların xüsusi çəkisi 90%-ə bərabər idi. 1859-cu ildə Dərbənd şəhərində 13470 nəfər, 1893-cü ildə 15265 nəfər, 1897-ci ildə isə 14649 nəfər əhali yaşayırdı. 1897-ci ildə Azərbaycan türklərinin xüsusi çəkisi 66,7% [9767 nəfər] təşkil edirdi.[55] Rəsmi məlumatlara istinadən qeyd etmək olar ki, "1909-cu ildə Dərbənd şəhərinin əhalisi ümumilikdə 32871 nəfər olmuşdur. Bu əhalinin 21785 nəfərini kişilər, 11086 nəfərini isə qadınlar təşkil etmişdir".[56]

XIX əsrin 40-cı illərində Dərbənddə olmuş Rus şərqşünası İ.Berezin yazırdı ki, *"Dərbənddə türk dili hökmranlıq edir. Dərbənd dialekti türk dilinin qərb qoluna aid olub və şimal şivələrindən qərb şivəsinə keçid təşkil edir".*[57]

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edil-

---

[53]Hacıyev A. Dərbənd XIX-XX əsrin əvvəllərində / A.Hacıyev. – Bakı: Turxan NPB, – 2017. – s. 179.

[54]Yenə orada. – s. 46.

[55]Yenə orada. – s. 98-103.

[56]Обзор о состоянии Дагестанской области за 1910 год. – Темир-Хан-Шура, – 1911. – с. 7.

[57]Березин И.Н. Путешествие по Дагестану и Закавказью с картами, планами и видами замечательных мест. 4.2. / И.Н.Березин. – СПб. Казань: – 1850. – с. 151.

dikdən sonra Dərbənd şəhəri Dağlılar Respublikasının tərkibində qaldı. 1919-cu ilin yazında Petrovsk [indiki Mahaçqala] şəhərini işğal edən Denikin ordusu cənuba doğru hərəkət etməyə başladı. Buradan sonra Dağlılar Respublikasının parlamenti və hökuməti özünü buraxmağa məcbur oldu.

1920-ci ilin aprelin 27-dən 28-nə keçən gecə sovet Rusiyasının hərbi təcavüzü nəticəsində Şimali Azərbaycan işğal edildi. 1920-ci il mart ayının 20-də isə Azərbaycanın tarixi və qədim şəhəri olan Dərbənd də keçmiş çar Rusiyasının əvvəlki sərhədlərində yeni yaradılmaqda olan Sovet Rusiyası tərəfindən işğal olundu.[58]

Tədqiqat işinin I fəslinin **"Dərbənd şəhərinin sosial-mədəni həyatına ümumi bir baxış"** adlanan II paraqrafında erkən orta əsrlər dövründən XIX əsrə qədər Dərbənd şəhərinin sosial-mədəni həyatından bəhs olunur. Bu zaman kəsiyində Dərbənd şəhərinin mədəni həyatına, mənəvi mühitinə, elm və təhsil fəaliyyətinə, ümumi nəzər yetirilmiş, şəhərin tarixi-memarlıq abidələri haqqında ətraflı məlumat verilmişdir.

Tarixinin 5000 ildən əvvələ gedib çıxdığı bilinən Dərbənd şəhəri orta əsrlərdə də Qədim Şərqin ən böyük mədəniyyət mərkəzlərindən biri olmuşdur. Tarixi qaynaqlardan verilən məlumatlarda Dəmirqapı Dərbənd adlandırılan Dərbənd bölgəsi tarixlər boyu türk xalqlarının yaşadığı və böyük mədəniyyət nümunələri yaradaraq formalaşdırdığı bir bölgə olmuşdur. Azərbaycan türklərinin və onunla qonşu türk xalqlarının ən qədim müştərək abidəsi olan oğuz qəhrəmanlıq eposu olan "Kitabi Dədə Qorqud" əsərində də Dərbənd şəhəri haqqında geniş məlumat verilir.[59]

Orta əsrlərdə Dərbənd şəhəri elm və təhsil mərkəzlərindən biri hesab olunurdu. Şirvan bölgəsinin aparıcı şəhərlərindən biri olan bu şəhər müsəlman dünyasında elm və təhsil xadimləri ilə məşhur idi. Bu dövrdə şəhərdə onlarla dini mədrəsələr fəaliyyət göstərirdi. Bu dövrdə

---

[58]Керимов А.К. Мой город Дербент / А.К.Керимов. – М.: Прозерпина, – 1994. – с. 47.

[59]Kitabi Dədə Qorqud / – Bakı: Öndər nəşriyyatı, – 2004. – 376 s.

Azərbaycanda maarifin başlıca mərkəzləri dini təşkilatlar, ilk növbədə məscidlər idi. Məscidlərin funksional əhəmiyyəti, onların mədəni-maarif mərkəzlərindən biri olması Azərbaycana müxtəlif məqsədlərlə, müxtəlif tarixi dövrlərdə gəlmiş Avropa səyyahlarının, tacirlərinin və diplomatlarının diqqətini, xüsusilə cəlb etmişdir.[60]

Orta əsrlər dövründə İslam mədəniyyətinin siyasi və mədəni mərkəzlərindən biri olan Dərbənd şəhərində onlarla elm xadimi yetişmiş və ümumislam mədəniyyətinə öz töhfələrini vermişdir.[61]

XVII-XIX əsrlərdə də Dərbənd şəhərinin elmi mühiti görkəmli alimlərlə zəngin idi. Bu dövrdə Dərbəndin bütün müsəlman dünyasında, şöhrət qazanmış alimlərindən Mirzə Kazım Bəy, Ayətullah Seyid Əbu-Turab Dərbəndi, Seyid Mehdi Dərbəndi, Şeyx Hüseynqulu Dağıstani, Ayətullah Hacı Şeyx Qulam-Hüseyn Dərbəndi, Molla Ağa Dərbəndini (Fazil Dərbəndi) qeyd etmək olar.

Azərbaycan milli memarlığının aparıcı istiqamətlərindən biri də Şirvan-Abşeron məktəbi idi. Şirvan-Abşeron memarlıq abidələrinin ən gözəl nümunələri bu məktəbin başlıca mərkəzlərində Bakı, Şamaxı və Dərbənddə cəmləşmişdir.[62]

Dərbənd şəhərinin memarlıq abidələri içərisində məscidlərin özünəməxsus yeri vardır. Dərbənd şəhərinin ən qiymətli memarlıq abidələrindən biri İslam dininin ən qədim ibadət mərkəzlərindən biri olan Cümə məscididir. Dərbəndin Cümə məscidi müsəlmanların ibadəti üçün tikilmiş ən qədim məscid olmaqla yanaşı, həm də İslam aləmində ən qədim məscidlərdəndir. Dərbənd Cümə məscidi 733-734-cü illərdə inşa edilmişdir.[63]

Dərbənd şəhərinin memarlıq abidələri içərisində Dərbənd qalası-

---

[60]Qasımov X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti / X.Qasımov. – Bakı, – 2008. – s. 192.

[61]Nəsirov E. Orta əsrlərdə yaşamış Azərbaycanlı alimlər / E.Nəsirov. – Bakı: – 2011. – s. 94-96.

[62]Кудрявцев А.А. Древний Дербент / А.А.Кудрявцев. – М.: Наука, – 1982. – с. 135.

[63]Керимов А.К. Мой город Дербент / А.К.Керимов. – М.: Прозерпина, – 1994. – с. 32-33.

nın özünəməxsus yeri vardır. Bu qala ilkin orta əsrlərin Azərbaycan istehkam tikintisinin şah əsəridir. İnşaat texnikasının yüksək səviyyəsinə, rəngarəng relyefə uyğun planlaşma – məkan quruluşuna görə Dərbənd şəhəri tikinti və şəhərsalma sənətinin ən böyük nümunələrindən biridir. Şəhərdə ən möhtəşəm memarlıq kompleksi Narınqala hesab olunur. Narınqala kompleksinə 13 möhtəşəm tikili daxildir. Bu kompleksdə xan sarayı, qarovulxana, yeraltı həbsxana, su anbarı, hamam və digər tikililər vardır. Həmçinin burada xan dəftərxanası və rəsm qalereyası da mövcuddur.[64]

Dissertasiyanın II fəsli **"XIX – XX əsrin əvvəllərində Dərbənd şəhərində elm və təhsil"** adlanır. Bu fəslin I paraqrafında XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərində elmdən bəhs olunur. Qeyd olunur ki, tarixlər boyu Azərbaycanın elm mərkəzlərindən biri olan Dərbənd şəhəri Azərbaycanın elm tarixinə olduqca böyük töhfələr vermişdir. XIX əsrdən etibarən cəmiyyətin sosial-iqtisadi inkişafı ilə meydana gələn yeni maddi və mənəvi tələbat Azərbaycanda savadlı adamların artmasına, elm, təhsil, maarif sahəsindəki inkişafına ciddi təkan vermişdi.

XIX əsrin əvvəllərində Rusiyanın tərkibinə qatıldıqdan sonra Dərbənd müsəlman mədəniyyəti ilə dünyəvi mədəniyyətin geniş ənənələrini özündə çulğaşdıran mədəni mərkəzə çevrildi. Şəhərin timsalında bu tendensiya özünü əsrin sonunda daha qabarıq nəzərə çarpdırırdı. İşğaldan sonrakı dövrdə şəhərin əvvəlkindən tam fərqli olan sosial-iqtisadi inkişaf xəttinə düşməsi, ümumrusiya bazarına qoşulması ilə meydana gələn yeni maddi və mənəvi tələbat Dərbəndin elmi dairələrinin dünyagörüşünə də öz təsərini göstərdi, elmi, ədəbi, fəlsəfi və s. sahələrdə maraq dairələrini  xeyli dərəcədə yeniləşdirdi  və genişləndirirdi. Bunlarla yanaşı, XIX-XX əsrin əvvəllərində də Dərbəndin humanitar və təbiət elmləri sahələrində də müsəlman ənənələrinin təsiri qorunub saxlanmaqda idi.

[64]Ибрагимов А.М. Дербент – музей под открытым небом / А.М.Ибрагимов. – Махачкала: Лотос, – 2015. – с. 66-67.; Керимов А.К. Мой город Дербент / А.К.Керимов. – М.: Прозерпина, – 1994. – с. 13-14.

Yerli alimlərin məşğul olduqları elm sahələrindən biri də tarix elmi idi. Dərbəndimizdə bu elm sahəsinə maraq çox geniş idi və bu elm sahəsi xeyli intişar tapmışdır. Ərəb-İslam mədəniyyəti elmin bu sahəsinin inkişafına da əhəmiyyətli təsir göstərmişdi. Mirzə Kazım bəy və A.A.Bakıxanovla başlanan tarixi irsin araşdırılması ənənələri iki əsrin qovşağında da davam etməkdə idi. Bu dövrdə həm bütövlükdə Dərbəndin və Dağıstanın tarixinə dair, həm də ayrı-ayrı hadisələrə həsr olunmuş sistemləşdirilmiş irihəcmli tarixi əsərlər meydana çıxırdı.[65]

XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Dərbənd şəhərində bütün müsəlman dünyasında, xüsusən şiə aləmində şöhrət qazanmış alimlərindən Ayətullah Seyid Əbu-Turab Dərbəndi, Seyid Mehdi Dərbəndi, Şeyx Hüseynqulu Dağıstani, Ayətullah Hacı Şeyx Qulamhüseyn Dərbəndi, Molla Ağa Dərbəndi [Fazil Dərbəndi], Məhəmmədtağı Dərbəndi, Həsən Əlqədəri, əslən Cənubi Azərbaycandan olan nasir, publisist və maarifçi Mirzə Əbdürrəhim Talıbov, Qasım bəy Minətulla bəy oğlu Heydərov, İbrahim bəy Heydərovun və b. xüsusi xidmətləri olmuşdur.[66]

XIX əsrin ikinci yarısından etibarən Dərbəndə elm və təhsilin inkişafında böyük rol oynayan kitabxanalar təşkil olunmağa başlamışdır. Şəhərin baş məscidi olan Cümə məscidində çox sayda kitab saxlanılırdı və bu kitablardan şəhər sakinləri istifadə edirdilər. Cümə məscidinin kitabxanası Sovet işğalı dövründə 1938-ci ildə məhv edilərək bağlanmış, bina isə Daxili İşlər Xalq Komissarlığının istintaq təcridxanasına verilmişdir.

XIX əsrin 60-cı illərində Dərbənd şəhərində ictimai kitabxanalar fəaliyyət göstərirdi. 90-cı illərdən etibarən şəhərdə özəl oxu zalı da açılmışdır.[67] XIX əsrin sonlarında şəhərdə mətbəələr də fəaliyyət gös-

---

[65]Абдуллаев М.А. Средневековая арабо-мусульманская культура и ее влияние на Дагестан / М.А.Абдуллаев. – Махачкала: Изд. дом «Эпоха», – 2005. – с. 183.
[66]Зульпукарова Э.М. Формирования и деятельность Дагестанской Интеллигенция конец XIX – середина XX века / Э.М.Зульпукарова. – Махачкала: Юпитер, – 2003. – с. 252-256.
[67]Əliyev N. Böyük Dərbənd Ensiklopediyası / N.Əliyev. – Bakı: Afpoliqraf, – 2018. – s. 390.

tərirdi. Dərbənd şəhərində ilk özəl mətbəə 1895-ci ildə Melnikova tərəfindən açılmışdır. Sovet hakimiyyəti qurulduqdan sonra Melnikovanın mətbəəsi milliləşdirilmiş və dövlət mətbəəsi yaradılmışdı.[68]

II fəslin II paraqrafı **"Dərbənd XIX-XX əsrin əvvəlləri Şimali Azərbaycan təhsil mühitinin mərkəzlərindən biri kimi"** adlanır. Bu paraqrafda XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərində təhsil sistemindən bəhs olunur. Qeyd olunur ki, Rusiya işğalına qədərki dövrdə [1806-cı il] davamlı olaraq bütün Azərbaycanda olduğu kimi, Dərbənd şəhərində də müsəlman-Şərq ənənələri təhsil sisteminin əsasını təşkil etmişdir. Məhəllə məscidlərinin nəzdində fəaliyyət göstərən ibtidai məktəblər əsasən orta, bəzi hallarda isə hətta ali təhsil verən mədrəsələr statusunda fəaliyyət göstərirdilər. Dərbənd şəhərinin Rusiya tərəfindən işğalından sonra da uzun müddət ənənəvi müsəlman təhsil sistemi öz əhəmiyyətini qoruyub saxlamışdı. İbtidai təhsil bütövlükdə müsəlman ruhanilərinin ixtiyarında olan, buna görə də dini dünyagörüşünün mənbəyinə çevrilən məktəblərdə cəmləşmişdi. İşğaldan sonrakı ilk onilliklərdə çar hakimiyyəti məscidyanı məktəblərin işlərinə rəsmi olaraq qarışmırdı. Lakin onların fəaliyyətini davam etdirməsi üçün də heç bir maddi yardım göstərmirdi. Hökumətin ilk dövrlərində ənənəvi təhsil müəssisələrinə zahiri loyal münasibəti həm də onunla əlaqədar idi ki, belə məktəblər yerli əhalinin təhsilə tələbatını ödəməklə dövlət xəzinəsini tədris müəssisələrinə əlavə vəsait xərcləməkdən xilas edirdi.[69]

1834-cü ildə hakimiyyətdə rəsmi icazə almadan fəaliyyət göstərən bütün tədris müəssələrinin qapdılması barədə Rusiya imperatoru I Nikolayın (1825-1855) fərmanı elan olundu.[70] İmperator fərmanına və yaradılan süni maneələrə baxmayaraq, şəhərdə məscidyanı məktəblər fəaliyyət göstərməkdə davam etdirdi. 1851-ci ilin statistik rəqəmlərinə görə, Dərbənddə fəaliyyət göstərən müsəlman məktəblərində 80 şagird

[68]Əliyev N. Böyük Dərbənd Ensiklopediyası. – s. 387.
[69]Azərbaycan tarixi: [7 cilddə]. – Bakı: Elm, – IV cild (XIX əsr), – 2000. – s. 82.
[70]Əliyev N. Böyük Dərbənd Ensiklopediyası / N.Əliyev. – Bakı: Afpoliqraf, – 2018. – s. 376.

təhsil alırdı ki, ötən illə müqayisədə onların sayı 26 nəfər artmışdı.[71]

1873-cü ildə Dərbənddə 394 nəfər şagirdi olan 18 məscidyanı məktəb, 1887-ci ildə 164 şagird olan 6 məktəb, 1913-cü ildə 270 nəfər şagirdi olan 10 məktəb (onlardan 40 nəfəri qız idi-N.H.), 1915-ci ildə 213 nəfər şagirdi olan 10 məktəb (52 qız) fəaliyyət göstərmişdir.[72]

Bütün Azərbaycanda olduğu kimi, Dərbənddə də avropasayağı, rusiyasayağı, dünyəvi təhsil sisteminin əsası Cənubi Qafqaz məktəbləri haqqında 1829-cu il "Əsasnamə"si ilə qoyulmuşdu. Belə ki, bu əsasnamə ümumrusiya xalq maarifi sisteminin tərkib hissəsi kimi qəzalarda rus dövlət məktəblərinin yaradılmasını nəzərdə tuturdu. Bu dövrdə Dərbənddə açılmış rus qəza məktəbi ümumilikdə Dağıstanda fəaliyyətə başlayan ilk rus tədris müəssisəsi olmuşdur.

1835-ci ilin avqustunda Rusiya Xalq Təhsil Nazirliyi Dərbənddə üçsinifli rus qəza məktəbinin açılması haqqında qərar qəbul etdi. Lakin həll edilməmiş maliyyə və təşkilati məsələlərə görə məktəbdə dərsin başlanması ləngimişdi. Yalnız 1837-ci ilin 19 noyabrında Dərbənd şəhərində ibtidai təhsil müəssisəsi fəaliyyətə başladı.[73]

1848-ci ildə qəbul olunan "Qafqaz Tədris Dairəsinə dair təlimat"a əsasən Dərbənd rus qəza məktəbi yenidən təşkil olunmuş Şamaxı-Dərbənd Məktəbləri İdarəsinin nəzdinə verildi.[74] 1877-ci il aprelin 1-dən Dərbənd qəza məktəbi dördsinifli şəhər məktəbinə çevrilmişdir.

XIX-XX əsrin əvvəllərində Dərbənddə fəaliyyət göstərən ən nüfuzlu məktəblərdən biri də Müsəlman məktəbi idi. Bu məktəbin ideya müəllifi Qafqaz canişini M.S.Vorontsov olmuşdur. O, Qafqazda müsəlmanlar üçün elə xüsusi məktəblərin açılmasını məqsədəuyğun hesab edirdi ki, orada müsəlmanlar öz dini inanclarına uyğun təhsil al-

---

[71]Отчеты военного губернатора о состоянии Дербентской губернии за 1850 г. Российский Государственный Исторический Архив. Фонд №1268, опись №5, дело №372. л. №13.

[72]Əliyev N. Böyük Dərbənd Ensiklopediyası / N.Əliyev. – Bakı: Afpoliqraf, – 2018. – s. 377.

[73]Yenə orada. – s. 368.

[74]Омаров С.М. Школьное образование в дореволюционном Дагестане / С.М.Омаров. – Махачкале, – 2007. – с. 28.

maqla yanaşı həm də gündəlik ünsiyyət üçün rus dilini mənimsəsinlər. 1848-ci ilin may ayında Dərbənd şəhərində müsəlman məktəbi açılmışdır.[75] Şagird çatışmazlığı səbəbindən Qafqaz canişinin sərəncamı ilə 1856-cı il yanvarında Dərbənd müsəlman məktəbi bağlanaraq Temirxan-Şuraya köçürüldü.[76]

XIX əsrin ikinci yarısında Dərbəndin müsəlman qızlarının təhsilə cəlb olunması istiqamətində də müəyyən işlər görülürdü. Bu sahədə ilk təşəbbüs şəhər rəisi E.Q.Camarcidzenin həyat yoldaşına məxsus olmuşdur. Məhz onun səyləri nəticəsində 1864-cü ilin sentyabr ayında Dərbənddə qızlar üçün məktəb açıldı.[77] Bu məktəb 1873-cü il iyunun 20-də bütün təbəqələrdən olan qızlar üçün dördillik təhsil məktəbinə çevrilmişdir. Həmin məktəb 1900-cü ildə ücillik təhsilli progimnaziya, 1904-cü ildə isə gimnaziya olmuşdur.[78]

1891-cil Dağıstan vilayəti "İcmalı"na görə, bu dövrdə Dərbənd şəhərində ümumilikdə 16 məktəb fəaliyyət göstərmişdir:[79]

1. Müsəlman məktəbləri – 5
2. Yəhudi məktəbləri – 7
3. 3 illik şəhər məktəbi – 1
4. Qadın məktəbi – 1
5. Pravoslav kilsə məktəbi – 1
6. Erməni-qriqoryan məktəbi – 1.

1902-ci ilin oktyabr ayında Dərbənd şəhər realnı məktəbinin açılışı olmuşdur. S.D.Netatkeviç məktəbin ilk direktoru vəzifəsinə təyin edilmişdir.[80]

---

[75]Козубский Е.И. К истории народного образования в Дагестанской области в первое пятидесятилетие // Дагестанский сборник. – Темир-Хан-Шура, – 1902. Вып. I. – с. 201.

[76]Yenə orada. – с. 201.

[77]Yenə orada. – с. 226.

[78]Əliyev N. Böyük Dərbənd Ensiklopediyası / N.Əliyev. – Bakı: Afpoliqraf, – 2018. – s. 374.

[79]Обзор о состоянии Дагестанской области за 1891 год. 1892, – Темир-Хан-Шура, – с. 64.

[80]Гусейнов Г. Дербент. Энциклопедия / Г.Гусейнов. – Москва, – 2009. – с. 405-408.

1914-cü ildə Dərbənd şəhər ali-ibtidai məktəbində oxuyan 133 nəfər şagirdin dini mənsubiyyəti aşağıdakı kimi olmuşdur:

1. müsəlman – 34 nəfər;
2. pravoslav – 70 nəfər;
3. katolik – 1 nəfər;
4. erməni-qriqorian – 19 nəfər;
5. iudaist yəhudi – 8 nəfər;
6. xristian-təriqətçi – 1 nəfər.[81]

Q.K.Kaymarazov qeyd edir ki, *"1917-ci il fevral burjua inqilabı ərəfəsində Dərbənddə 11 məktəb mövcud idi və bu məktəblərdə 1686 nəfər şagird təhsil alırdı".*[82]

XIX – XX əsrin əvvəllərində Dərbənd şəhərində istər məscidyanı mədrəsələr, istərsə də dövlət məktəbləri geniş şəkildə fəaliyyət göstərmişdir. Nəticədə şəhər əhalisinin ictimai şüuru və təfəkkür tərzində bir sıra yeni mütərəqqi baxışlar meydana gəlmişdir. Rəsmi hakimiyyət orqanlarının başlıca vəzifəsi ilk növbədə çarizmə xidmət edəcək savadlı adamların hazırlanması idi. Amma buna baxmayaraq, rusdilli dünyəvi məktəblərin meydana çıxması Dərbəndə də dünya, Avropa və eləcə də Rusiya elm və mədəniyyətinə bələd olan, onlardan ustalıqla bəhrələnən ziyalılar təbəqəsinin yetişməsində, bir sıra dünyəvi elmlərin yayılmasında, təhsilin inkişafında müəyyən müsbət rol oynamışdır.

Dissertasiyanın III fəsli **"Dərbənd şəhərinin mənəvi həyatı"**ndan bəhs edir. Bu fəslin I paraqrafı "**Dərbəndin yazılı və şifahi ədəbiyyatı"** adlanır. Bu paraqrafda qeyd olunur ki, Azərbaycanın tarixi mədəniyyət mərkəzlərindən biri olan Dərbənd bölgəsi eyni zamanda türk xalqlarının folklorunun yaranması və formalaşmasında böyük rola malik olmuşdur. Azərbaycan xalqının formalaşmış və bitkin formada günümüzə qədər gəlib çatan folklor nümunələrinin böyük, xeyli qisminin Dərbənd bölgəsi və bu ərazilərdə yaşayan yerli Azərbaycan

---

[81]Статистический ведомости о состояний Дербендского городского училише за 1913 годь. На 116 листах. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond №309, siyahı №1, iş №975, vərəq – 31.

[82]Каймаразов Г.Ш. Просвещение дореволюционном Дагестане / Г.Ш.Каймаразов. – Махачкала, – 1989. – с. 52-53.

əhalisi ilə sıx bağlılığı vardır. Azərbaycan şifahi xalq ədəbiyyatının əvəzolunmaz tarixi və ədəbi nümunələrindən olan "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Abbas-Gülgəz", "Valeh-Zərnigar", "Məsum-Diləfruz" və digər folklor nümunələrinin bu və ya digər formada Dərbənd bölgəsi ilə birbaşa tarixi və ədəbi bağlılığı vardır.

Azərbaycan şifahi xalq ədəbiyyatının dəyərli nümunələrindən biri də aşıq-ozan sənətidir. Müxtəlif dövrlərdə Azərbaycanda müxtəlif aşıq mühitləri – məktəbləri fəaliyyət göstərmiş və inkişaf etmişdir. Bu aşıq mühitlərindən biri də Dərbənd aşıq mühitidir.

XVIII əsrdə Dərbəndin ədəbi həyatında gözəl şairə Zərnigar xanım Dərbəndinin [1722-1770] yaradıcılığı xüsusi yer tutur. Onun dastanlarından, xüsusilə şairənin həyatını təsvir edən "Valeh və Zərnigar", "Həqiqət və tale" və s. dastanları bu gün də aşıqlar tərəfindən ifa olunur.[83]

Dərbənd aşıq mühiti adı çəkilən sənətkarlarla yanaşı sənət aləminə Dərbənd mahalından olan Yersulu Aşıq Emin, Səfilili Məmməd, Xəlil Qaradağlı, Əhməd Hümeydi, Vəlikəndli Fətəli, Aşıq Qonaqbəy, Aşıq Tahirbəy, Aşıq Niftulla kimi görkəmli saz-söz ustadları da bəxş etmişdir. Dərbənd aşıq mühiti XX yüzilin ortalarından etibarən zəifləməyə başlamışdır.[84]

Dərbənd əhalisi arasında mərasim nəğmələri ağız ədəbiyyatının geniş yayılmış janrlarından biri olmuşdur. Quraqlıq dövründə yağışın yağması ilə bağlı müxtəlif dualar edilirdi. Yerli əhali yağış duasına "Güdül" deyir və bunu bir mərasim şəklində edirdilər.[85]

XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərində ağız ədəbiyyatı ilə yanaşı yazılı ədəbiyyat da dövrün spesifik xüsusiyyətlərinə uyğun şəkildə inkişaf etməkdə idi. Bu dövrdə digər bölgələrdə olduğu kimi,

---

[83]Əliyev N. Böyük Dərbənd Ensiklopediyası / N.Əliyev. – Bakı: Afpoliqraf, – 2018. – s. 393.

[84]Qasımlı M. Ozan-aşıq sənəti / M.Qasımlı. – Bakı: Uğur nəşriyyatı, – 2003. – s. 214-215.

[85]Novruzova G. Dagıstan Derbent bölgesi terekeme türklerinin dini hayatı: / Felsefe ve Din Bilimleri Anabilim Dalı, Din Sosyolojisi Bilim Dalı, Yüksek Lisans Tezi / – Kayseri, 2005. – s. 77-78.

Dərbənd ədəbi mühitində də mərsiyə ədəbiyyatı daha geniş yayılmışdır. Bu dövrdə Dərbəndin ədib və şairləri içərisində ən nüfuzlu şəxslərindən Mirzə Məhəmməd Tağı Gümri, Mirzə Kərim Şüai, Mirzə Cəbrayıl Süpehri, Mirzə Səməndər, Mirzə Həsən Əlqədari, Mirzə Əbdürrəhim Şeyx Abutalıbzadə və başqaları Dəırbənd bölgəsinin ədəbi mühitinin formalaşmasında böyük rol oynamışlar.

Dissertasiyanın III fəslinin II paraqrafı **"İncəsənət sahələri və onların inkişaf xüsusiyyətləri" adlanır.** Bu paraqrafda ilk növbədə qeyd olunur ki, XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Azərbaycan milli mədəniyyətin ümumi yüksəlişi ilə bağlı olaraq Dərbənddə də mədəni ənənələr inkişaf etməkdə idi. Dərbənd şəhərində Azərbaycan teatr ənənələri çoxəsrlik tarixə malikdir. Bu ərazidə yaşayan Azərbaycan türkləri uzun əsrlər ərzində müxtəlif mərasimlərlə, təbiətlə, məişətlə, hətta ölümlə bağlı çoxlu oyun-tamaşalar yaratmış və onu mədəniyyətimizin ayrılmaz bir qolu kimi inkişaf etdirmişlər.

XIX-XX əsrin əvvəllərində Dərbənddə meydan teatrının ən geniş yayılmış formalarından biri "Şəbihlər" idi. Şəbih sözü ərəbcə "bənzər" deməkdir. Dini-misteriya tamaşası olan Şəbih bəhs olunan dövrdə Yaxın və Orta Şərqdə, eləcə də Azərbaycanda çox geniş yayılmışdı.[86]

XIX əsrin 80-ci illərinin ortalarında Dərbənddə həvəskar türk dram teatr dərnəyi təşəkkül tapmışdır. Onun yaradılmasının təşəbbüskarları şəhərin azərbaycanlı ziyalılarının geniş dairəsi müəllimlər, təhsil müəssisələrinin yuxarı sinif şagirdləri, musiqiçilər, muğam və xalq mahnılarının ifaçıları və b. idi.[87]

XX əsrin əvvəllərində şəhərdə iki Azərbaycan və rus həvəskar teatr truppası fəaliyyət göstərirdi. Teatr tamaşalarının göstərilməsi üçün Şəhər ictimai idarəsinin binası, Qunib ehtiyat batalyonunun kazarması, habelə "Mulen" və "Miraj" kinoteatrlarına məxsus zallardan da istifadə olunurdu.[88]

---

[86]Əliyev N. Böyük Dərbənd Ensiklopediyası / N.Əliyev. – Bakı: Afpoliqraf, – 2018. – s. 420.

[87]Козубский Е.И. История города Дербента / Е.И.Козубский. – Темир-Хан-Шура: Изд. Русская типография, – 1906. – с. 230.

[88]Каймаразов Г.Ш. Очерки истории культуры народов Дагестана [От времени

1904-cü ilin sentyabr ayında ilk peşəkar teatr – Dərbənd Azərbaycan Musiqili Dram Teatrı fəaliyyətə başladı. Yeni teatrın ilk aktyorları sırasında incəsənət xadimləri – Hüseynqulu Ərşad oğlu, Dirək Abbasqulu, Hüseyn Xankişi oğlu, Fətullah Hacı Səlim oğlu, Pərviz Hacı Səlim oğlu, Mirələm Mir Sadıq oğlu, Hacı Cubay Əliəkbər oğlu, Məşədi İbad Hacı Tağı oğlu, Miqdar Hacı Ağa oğlu və b. var idi.[89]

XIX əsrin ikinci yarısında Dərbəndə memarlığının inkişafı özünəməxsusluğu ilə seçilirdi. Qədim memarlıq ənənələrinə malik çox unikal şəhərlərdən biri olan Dərbənddə mövcud olan çoxsaylı abidələr memarlıq üslubuna görə eyni zamanda həm Şərqin, həm də Avropanın memarlıq ənənələrini özündə əks etdirirdi. Möhtəşəm müdafiə istehkamları, Narınqala, Cümə məscidi kompleksi, hamamlar, orijinal minarələr, Qırxlar məscidi, qeyri-adi dəniz divarları, qədim şəhərin layihəsi, gözəl sərdabələr və s. şəhərin qədim memarlıq ənənələrinə malik olduğunun əyani sübutudur.

Tədqiqat işinin III fəslinin III paraqrafı **"Din və onun sosial-mədəni həyatda rolu"**na həsr olunmuşdur. Bu paraqrafda göstərilir ki, Azərbaycanın digər tarixi bölgələrində olduğu kimi, Dərbənddə də İslamdan əvvəl xristianlıq, iudaizm, digər müxtəlif zərdüştilik dini inancları mövcud olmuşdur. Bölgədə İslam dini yayıldıqdan sonra siyasi münaqişələrlə yanaşı dini münaqişələrə də son qoyuldu. XIX-XX əsrin əvvəllərində Dərbənd şəhəri əhalisinin dini mənsubiyyətinə görə rəngarəng olaraq qalmışdır. Bu dövrdə bölgə haqqında müxtəlif qaynaqlarda məhdud olsa da, bəzi məlumatlara rast gəlmək mümkündür. Dərbənd komendantı fon Aşeberqin 1824-cü ildə Dərbənddə keçirdiyi siyahıyaalmanın nəticələrinə əsasən, şəhərdə 10377 müsəlman [5407 kişi, 4970 qadın], 239 erməni – [136 kişi, 103 qadın], 444 yəhudi [230 kişi, 214 qadın] qeydə alınmışdır.[90] 1897-ci il Ümumrusiya siyahıyaalınmasının nəticələrinə görə, "Dərbənd şəhərində 1135 nəfər pravoslav, 3 nəfər təfriqəçi, 296 nəfər katolik, 25 nəfər protestant, 10383

---

присоединения к России да наших дней] / Г.Ш.Каймаразов. – М.: Наука, – 1971. – с. 27.

[89]Козубский Е.И. История города Дербента. – с. 322.

[90]Yenə orada. – с. 166.

nəfər müsəlman, 2190 nəfər yəhudi, 613 nəfər müxtəlif xristian təriqətlərinə məxsus, 4 nəfər qeyri-xristian əhali yaşayırdı”.[91]

XIX əsrin sonu – XX əsrin əvvəlləri də daxil olmaqla Dərbənd şəhəri əhalisinin dini tərkibində pravoslav, qriqoryan və iudaizmə inanan yəhudi əhalisinin sayı dinamik olaraq yüksələn xətlə artmışdır.[92]

Müsəlman əhalisinin artım dinamikasında isə ümumilikdə XIX əsrin sonu – XX əsrin əvvəllərində, diqqət çəkən bir irəliləyiş baş verməmişdi. 1909-cu ildən etibarən Dərbənd əhalisinin sayında qeydə alınan azalma prosesi əhalinin dini tərkibində, xüsusilə də müsəlman əhalisinin sayında daha qabarıq müşahidə olunurdu. Əldə olunan materialların təhlili göstərir ki, çarizmin yeritdiyi ruslaşdırma, xristianlaşdırma siyasəti Dərbənd əhalisinin dini tərkibində müsəlmanların xüsusi çəkisinin kəskin şəkildə azalmasına gətirib çıxarmışdı.[93]

XIX əsrin sonu – XX əsrin əvvəllərində Dərbənd bölgəsində müsəlman dini təriqətlərinin də nəzərəçarpacaq dərəcədə rolu vardır. Düzdür, Dərbənd müsəlmanlarının əksəriyyəti şiə məzhəbinə mənsub olsalar da, bu bölgədə sufilik dini dünyagörüşüə söykənən Nəqşbəndiyyə, Qədəriyyə və Sazeli təriqətləri də fəaliyyət göstərirdi.[94]

İşin **“Nəticə”** hissəsində tədqiqat gedişində əldə olunmuş elmi-nəzəri qənaətlər ümumiləşdirilərək aşağıdakı nəticələrə gəlinmişdir:

- Çoxəsrlik zəngin tarixə malik olan, uzun dövr ərzində Azərbaycan xalqının iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamış Dərbənd şəhərinin tarixi tariximizin tərkib hissəsi olaraq Azərbaycanın sivilizasiya, elm və mədəniyyət mərkəzlərindən biridir (6; 7).

- Dərbənd şəhəri ulu türk mədəniyyətinin beşiklərindən biri olmaqla dünya azərbaycanlılarını birləşdirən milli mənsubiyyətin, milli mənəvi dəyərlərin simvolu, özünəməxsus milli mədəniyyətimizdə – ədəbiyyatımızda, incəsənətimizdə, musiqimizdə, poeziyamızda, folk-

---

[91]Первая всеобщая перепись населения Российской империи 1897 г. Дагестанская область // – СПб, – 1905. Т.62, – с. 454.

[92]Hacıyev A. Dərbənd XIX-XX əsrin əvvəllərində / A.Hacıyev. – Bakı: Turxan NPB, – 2017. – s. 107.

[93]Yenə orada. – s. 108-110.

[94]Курбанов Г.М. Религия и политика террора. – Махачкала, – 2002. – с. 9.

lorumuzda, təhsil sistemimizdə əks olunan milli kimliyimizin ayrılmaz bir hissəsidir (3; 9).

- XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərində əhalinin dini dünyagörüşü, inanc sistemi, adət-ənənələri əsasən tarixi kökləri qədim zamanlara gedib çıxan dini-mifoloji baxışlara söykənirdi. Bu dövrdə müsəlman əhali arasında klassik islam anlayışı hökm sürsə də, müasir təfəkkürə söykənən baxışlar da yaranmaqda idi. Rəsmi müstəmləkə orqanlarının bütün səylərinə, planauyğun şəkildə yürüdülən müstəmləkəçi köçürmə, dini siyasətə baxmayaraq, Dərbənd əsasən müsəlman-türk şəhəri olaraq qalır, İslam dini bu şəhərin ictimai-siyasi, sosial-mədəni həyatında mühüm amil olaraq qalırdı (9).

- XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərində şifahi xalq ədəbiyyatı öz ənənəvi xüsusiyyətlərini qoruyaraq mövqeyini saxlamış, yazılı ədəbi mühit isə xüsusilə şairlərin ədəbi fəaliyyəti sahəsində daha da zənginləşmişdir (10).

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı elmi məqalələr nəşr olunmuşdur:**

1. XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərinin mədəniyyətinin tarixşünaslığına dair // Gəncə Dövlət Univeristeti, Elmi Xəbərlər, Fundamental, humanitar və təbiət elmləri seriyası, – 2013. №1, – s. 136-140.
2. XIX əsrin sonu, XX əsrin əvvələrində Dərbənd şəhərinin teatr və memarlıq ənənələrinə dair // – Bakı: Tarix və onun problemləri, – 2013. №3, – s. 227-281.
3. Dərbənd şəhərinin sosial-mədəni həyatına ümumi bir baxış // Gəncə Dövlət Univeristeti, Qafqaz tarixinin aktual məsələləri beynəlxalq konfrans. – Gəncə, – 2015, – s. 251-258.
4. XIX əsrin II yarısı, XX əsrin əvvəllərində Dərbənd şəhərinin incəsənət sahələri və onların inkişaf xüsusiyyətləri // Gəncə Dövlət Univeristeti, Gənc alimlərin I beynəlxalq elmi konfransı, – Gəncə: Gəncə Dövlət Universiteti, – 2016, – s. 221-225.

5. XIX əsrin əvvəllərində Dərbənd şəhərində təhsilin tarixindən // – Bakı: Geostrategiya, aylıq ictimai-siyasi, elmi-populyar jurnal, – 2018. №2 (44), – s. 34-37.

6. Об истории исследования истории древнеазербайджанского города Дербенда XIX – начала XX вв. // – Киев: Вчени записки, Таврийского Национального Университету, имени В.И.Вернадского, Серия «Исторични науки», – 2019. Том: 30 (69). №3, – с. 112-117.

7. Dərbənd şəhərinin sosial-mədəni həyatının tarixindən // – Bakı: Tarix və onun problemləri, – 2019. №3, – s. 20-26.

8. XIX-XX əsrin əvvəllərində Dərbənd şəhərində mənəvi həyatın tarixindən // – Almaty, Kazakistan: Al Farabi 12th International Scientific Research and Innovation Congress. – March 3-4, – 2024, – s. 974-978.

9. The history of spiritual life in the city of Darband in the early XIX-XX centuries // Наукого-теоретичній альманах «Грани», Дніпровський Національный Університет імени Олеся Гончара, Національный Технічний Університет «Дніпровська политехніка» та ГО «Центр соціально-політичних досліджен», – 2024. №2, Том: 27, – с. 59-63.

Dissertasiyanın müdafiəsi 27 sentyabr 2024-cü il tarixdə saat $14^{00}$-da AMEA Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Naxçıvan Bölməsinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 24 iyun 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.06.2024
Kağızın formatı: 60/84, 16/1
Həcm: 47.255
Tiraj: 100